# MÜQAVİLƏ N____

Bakı şəhəri _____/_________________/_______

Bu müqavilə bir tərəfdən «AvirTel» MMC (bundan sonra «AvirTel»), digər tərəfdən ___________________________________________________(bundan sonra İstifadəçi) arasında imzalanmışdır.

## 1. Müqavilənin predmeti.

1.1. Müqavilənin predmetini «AvirTel» tərəfindən İstifadəçiyə 088 Toll Free xidmətinin göstərilməsi təşkil edir.
1.2. Aşağıdakı mümkün Toll Free Nömrələr İstifadəçi üçün təyin edilir:

1) ________________təsbit edilmiş 088 ________________Toll Free Nömrəsi
2) ________________təsbit edilmiş 088________________ Toll Free Nömrəsi
3) ________________təsbit edilmiş 088 ________________Toll Free Nömrəsi
4) ________________təsbit edilmiş 088 ________________Toll Free Nömrəsi
5) ________________təsbit edilmiş 088 ________________Toll Free Nömrəsi

1.3. Toll Free Nömrələr «AvirTel»in mülkiyyətidir və İstifadəçinin onlardan yalnız «AvirTel»in müştərisi olduğu müddət ərzində istifadə etmək hüququ vardır.

## 2.Müqavilənin müddəti.

Müqavilə imzalandığı gündən qüvvəyə minir və hər il üçün qüvvədə olacaqdır.

## 3. Tərəflərin öhdəlikləri.

3.1. «AvirTel»in öhdəliyi İstifadəçini 088 Toll Free xidməti ilə təmin etməkdir.
3.2. İstifadəçinin öhdəliyi 088 Toll Free xidməti üzrə bütün ödənişləri–quraşdırma haqqı, aylıq abunə haqqı və danışıq haqqlarını vaxtında ödəməkdir.

## 4. Ödəniş şərtləri.

4.1. İstifadəçi ödənişləri aşağıdakı tariflər əsasında aparır:

| ***Xidmət*** | ***Ölçü Vahidi*** | ***Tarif AZN*** |
|---|---|---|
| Eyni ərazi abunəçilərindən gələn zəng | bir dəqiqə | 0,04 |
| Digər ərazi abunəçilərinidən, o cümlədən beynəlxalq abunəçilərdən gələn zəng | bir dəqiqə | 0,14 |
| Aylıq abunə haqqı | bir ayda | 4 |
| «088» Toll Free Nömrəsinin təsbit edildiyi nömrənin dəyişdirilməsi | bir dəfə | 10 |
| Depozit | bir dəfə | ------- |

4.2**.** Ödəniş vahidi manatdır.
4.3. İstifadəçi danışıq haqqları üzrə ödənişi ona qəbz və ya hesab təqdim ediləndən **3** (üç) gün ərzində həyata keçirir.
4.4. İstifadəçi ödənişləri gecikdirdikdə bu «AvirTel» üçün xidmətin göstərilməsini dayandırmağa əsas sayılır.
4.5. Müqavilə ləğv edildikdə aylıq abunə haqqı geri qaytarılmır və həmin Toll Free Nömrələr başqalarına satılır.

## 5. Müqavilənin ləğvi.

5.1. Müqavilə qarşı tərəfə 30 (otuz) gün qabaqcadan yazılı bildiriş göndərməklə tərəflərdən birinin təşəbbüsü ilə ləğv oluna bilər.
5.2. Müqavilənin müddətinin başa çatmasına 30(otuz) gün qalmış tərəflərdən heç biri qarşı tərəfə Müqaviləni ləğv etmək barədə yazılı bildiriş göndərmədikdə Müqavilə əvvəlki şərtlər daxilində uzadılmış hesab olunur.

## 6. Fors-Major.

Tərəflərdən heç biri üsyan və ya vətəndaş ixtişaşları, müharibə və ya hərbi əməliyyatlar, milli və ya yerli fövqəladə vəziyyət, yanğın, ildırım, partlayış, daşqın və digər oxşar hadisələrin (fors major) baş verməsi nəticəsində bu Müqavilə pozularsa məsuliyyət daşımırlar.

## 7. İdarəedici qanunular və mübahisələrin həlli.

7.1. Bu Müqavilə Azərbaycan Respublikasının qanunlarına uyğun tərtib və şərh olunur.
7.2 Bu Müqavilədən irəli gələn bütün mübahisələr tərəflər arasında qarşılıqlı razılaşma əsasında həll edilməlidir. Əgər tərəflər arasında hər hansı bir məsələ danışıqlar yolu ilə həll edilə bilməzsə, onda həmin məsələ Azərbaycan Respublikasının müvafiq məhkəmələrində həll ediləcəkdir.

## 8. Əlavə şərtlər.

8.1. Bu Müqavilə, Müqavilənin mövzusuna uyğun olaraq tərəflər arasındakı hazırki razılaşmadan ibarətdir və ya yazılı surətdə ifadə olunan bütün əvvəlki razılaşmaları və anlaşmaları aydınlaşdırır.
8.2. Müqavilə eyni hüquqi qüvvəyə malik olan iki nüsxədə tərtib edilir və imzalanır.

## Tərəflərin Rekvizitləri

| | |
|---|---|
| «AvirTel» MMC | «İstifadəçi» |
| Hesab: 3803710 | ____________________ |
| VÖEN: 1700463941 | ____________________ |
| «UniBank» KB | ____________________ |
| Kodu:505754 | ____________________ |
| VÖEN: 1300017201 | ____________________ |
| Müxbir hesab: 0137010015031 | ____________________ |
| S.W.I.F.T BİK: UBAZAZ22 | |
| ____________________ | ____________________ |
| **(imza və möhür)** | **(imza və möhür)** |